# Azərbaycan - Anqola münasibətləri

## Qısa tarixi məlumat:

**1994-cü ilin 01 dekabr** tarixində ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılması haqqında Protokol imzalanmışdır.
Azərbaycan Respublikası Prezidentinin 31 oktyabr 2012-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Elxan Polux oğlu Poluxov iqamətgahı Pretoriya şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Anqola Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilmiş və 22 fevral 2013-cü il tarixində öz etimadnaməsini Anqola Respublikasının Prezidenti cənab Xose Eduardo dos Santosa təqdim etmişdir.

## Yüksək səviyyəli qarşılıqlı səfərlər:

### Nazirlər:

| | |
|---|---|
| **10-11 iyun 2008-ci il** | **-** Bakıda keçirilən "Mədəniyyətlərarası Dialoqda Qadınların Rolunun Genişləndirilməsi" adlı Beynəlxalq Forumda iştirak etmək üçün Anqolanın birinci xanımı Luiza Milaqre Pitranın başçılığı ilə nümayəndə heyətinin Azərbaycana səfəri |
| **6 fevral 2009-cu il** | - Anqola Respublikasının Rusiya Federasiyasındakı və Azərbaycan Respublikasındakı yeni Səfiri Samuel Titu Armandunun etimadnamələrini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək üçün Azərbaycana səfəri |
| **22 fevral 2013-cü il** | **-** Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasındakı səfiri Elxan Poluxov öz etimadnaməsini Anqola Respublikasının Prezidenti cənab Xose Eduardo dos Santosa təqdim etmişdir. |

**<u>Sahələr üzrə əməkdaşlıq:</u>**

**<u>Humanitar sahədə:</u>**

**5 - 12 may 2013-cü il** – Capstone layihəsi çərçivəsində Azərbaycan Diplomatik Akademiyasının MADIA tələbələrinin Anqola Respublikasına və region ölkələrə səfəri (CAR, Namibiya, Botsvana)

**<u>Müqavilə-hüquq bazası:</u>**

Azərbaycanla Anqola arasında imzalanmış sənədlər və ticarət dövriyyəsi mövcud deyildir.

*Son yenilənmə tarixi: 03.10.2013*